47.82.10
UOT.82-1

# “TƏBİƏTİN HÖKMÜ OLSAYDI MƏNDƏ...”

**S.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***samiraquliyeva@mail.ru***

*Çağdaş Azərbaycan poeziyasının yaranması və inkişafında misilsiz xidmətləri olan xalq şairi Səməd Vurğun zəngin bir yaradıcılıq yolu keçmişdir.*

*O, əlli illik ömrünün yarıdan çoxunu şeirə, sənətə həsr etmiş, milli şeir xəzinəmizi zənginləşdirmişdir. Onun ürəklərə yol açan poeziyası, epik-lirik və dram əsərləri bu gün də yüksək bədii dəyərini, estetik təravətini saxlamaqdadır.*

*Çoxcəhətli və əhatəli həyat yolu keçmiş şairin poeziyasında insana, təbiətə həsr etdiyi poetik nümunələr xüsusi yer tutur. Məqalə boyu S.Vurğunun bu mövzuya həsr olunmuş əsərlərində mövzu ideyası və sənətkarlıq xüsusiyyətlərindən bəhs olunur.*

**Açar sözlər:** şair, təbiət, zərif, mövzu, doğma

Müasir Azərbaycan şeirinin ilk yaradıcılarından biri olan müstəqil poetik istiqamətin formalaşmasında ardıcıl axtarışlar aparan S.Vurğun poeziyanın yaddaşında qeyri-adi şair, dramaturq və mütəfəkkir kimi yaşayır.

Xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın bizə yaxın ən böyük körpüsü sayılan ölməz sənətkar yazdığı əsərləri ilə dilimizin bütün zənginliyindən bəhrələnərək dillər əzbəri olan poeziya örnəkləri yaratmışdır. Hələ ilk qələm təcrübələrindən aydın olur ki, gənc şairin ayna kimi təmiz qəlbində həyatı və varlığı şairanə duymaq və düşünmək bacarığı vardır. Onun ürəklərə yol açan poeziyası, eləcə də məzmunlu dram əsərləri xalqın ruhundan, qəlbindən xəbər verdiyinə görə bu gün də öz təbiətini saxlamaqdadır (1, 94).

Şairin poeziyasında hisslərin səmimiliyi, ifadə tərzi xəlqiliyi, təbiiliyi, fikir və mülahizələrin sadə və anlaşıqlı dildə yazılması ilə fərqlənir. Vaxtilə xalq yazıçısı Mir Cəlal yazırdı: “Səməd Vurğun bir çoxları kimi əlinə qələm aldığı gündən əsil şair kimi kağız korlamamışdır” (2, 79).

Azərbaycan təbiətinin aşiqi olan şair yaradıcılığa başladığı illərdən insana, təbiətə vurğunluqdan, saf və ülvi məhəbbətdən bəhs etmişdir. Onun bu mövzulu əsərlərində məna gözəlliyindən, estetik zövqdən, torpaqlarımızın barlı-bərəkətli olmasından, qartallı qayalarımızdan, sərin bulaqlarımızdan bəhs olunur – ümumən yaşadığımız aləmin əsrarəngiz gözəlliyini bir daha gözümüz

qarşısında canlandırır.

Akademik Məmməd Cəfər “Estetik zövq” adlı məqaləsində yazır: “Estetik gözəlliklərin tükənməz mənbələrindən biri təbiətdir. İnsanın təbiətdən aldığı zövq sonsuz, nəhayətsizdir. Təbiət insan üçün həm müəllim, həm sağlamlıq, həm də tükənməz estetik zövq mənbəyidir” (3, 13).

Vətənini alovlu bir məhəbbətlə sevən Səməd Vurğun poeziyasında xüsusi bir təbiəti duymaq qabiliyyəti vardır. Özünün dediyi kimi, “təbiət insan kamalının, insan əməllərinin təcəssümü olmalı, bəzən qaşlarını loğman kimi çatıb düşüncəli, bəzən də iztirablar, həyəcanlar içində çırpınan bir ürək kimi təlatümlər, fırtınalar keçirməlidir”. Təbiətin gözəlliyini bir rəssam həssaslığı ilə duyan şair bu gözəlliyi konkret və ülvi obrazlarda canlandırır və oxuculara sevdirir. Şairin lirikasında kənd həyatı, kənd təbiəti mühüm yer tutur, amma şair kənd həyatına yeni insanın gözləri ilə baxır. Osman Sarıvəlli demişkən “Qara daxmalı, çıraqlı köhnə kənd onun qəlbinə dar gəlir, o şirin zəhmət, xoş güzəran, ağ gün – deyə açılan yeni kəndin sabahını alqışlayır, yeni kəndi tərənnüm edir”.

S.Vurğun istər şeir və poemalarında, istərsə də səhnə əsərlərində Azərbaycan təbiətinin gözəlliklərini böyük məftunluqla tərənnüm etmişdir. Şairin uşaqlıq illəri doğulduğu kəndin yamaclarında, Qarayazı meşələrində keçdiyindən, təbiətə məhəbbətini xüsusi vurğulayır və qeyd edir ki, “uşaq özü canlı olduğundan insan da təbiət aşiqidir”.

Hələ 1938-ci ildə yazdığı “Qız qayası” poemasında “ormanlar içində çağlayan “İsa Bulağını” – onun “göz yaşı kimi” dumduru suyunu, o yerlərin şairanə təbiətinin təsvirini verməklə ilk gənclik illərini xatırlayır:

Düşündürür məni bu sirli diyar,
Burda həqiqətlər, əfsanələr var.
Dağların döşündə durur Qarabağ,
Xəyalı gəzdirir hər dərə, hər dağ.
Züy tutur gecələr suların səsi,
Burda çobanların zil şikəstəsi
Ormanlar içində İsa bulağı...
Ondan əksilməyir insan ayağı.
Suyu almaz kimi, göz kimi parlaq,
Qoynunda bəsləmiş onu bu torpaq (4, 107).

Şair öz doğma vətəninin valehedici təbiətini, zəngin maddi və mənəvi sərvətlərini poetik bir dillə “Kür çayı”, “Durnalar”, “Dağlar”, “Göy-göl”, “Dilican dərəsi”, “Çiçək” əsərlərində təsvir etmiş və s. kimi ənənəvi mövzulara müasir məzmun, yeni ictimai-siyasi məna verməyə xüsusi diqqət yetirmişdir.

Şifahi və yazılı ədəbiyyatımızın zəngin və tükənməz qaynaqlarından qidalanan şair öz lirik rübabını xalq və aşıq poeziyası üzərində kökləyən, poetik xəyalı həmişə zirvələri dolaşan, hər zirvədə, hər varlıqda poeziya tapan bir təbiət aşiqi idi.

Bu cəhətdən çoxlarının dillər əzbəri olan “Bahar” şeiri dilinin lakonikliyinə, yığcamlığına, təsvir vasitələrinin zənginliyinə görə xarakterikdir.

Bahar, istəklimsən başdan-binadan,
Ən gözəl qızısan sən təbiətin.
Xoşbəxt yaranmısan xoşbəxt anadan,
Gözünün odusan şeirin, sənətin,
Ən gözəl qızısan sən təbiətin.
Dən olub səpilək gəl səninlə mən,
Göyərək torpaqda sünbüllər kimi.
Qızlar gülab çəksin qoy ətrimizdən,
Baharın zinəti al güllər kimi (4, 215).

Səməd Vurğunun şeirləri içərisində əlçatmaz-ünyetməz əzəmətli dağlarımıza həsr etdiyi poetik nümunələrin də xüsusi yeri vardır. Dağlar mövzusu qədim bir tarixə malikdir. Kitabi-Dədə Qorquddan başlayaraq və sonra yaranan epik, lirik əsərlərdə, o cümlədən, Nizami, Füzuli, Xətai, aşıq ədəbiyyatında Aşıq Ələsgərin silsilə yaradıcılığında da ifadəsini tapmışdır. Həm də dağ və onunla bağlı olan obraz zaman keçdikcə konkretləşərək əfsanəvi bir varlıq olmaqdan daha çox insana yaxın olan real təbiətin əsrarəngiz bir parçası kimi konkretləşdirilir. Aşıq Ələsgər şeirində dağlar insana böyük hami şəklində obrazlaşdırılır.

Eldən ayrı aşiq niyə yaşadı
Olsun Ələsgər tək qulların dağlar!

Səməd Vurğunun isə dağlar silsilə şeirlərində dağlar insana yaxın dost, ona arxa kimi təsvir edilir:

Qayaları baş-başadır,
Güneyləri tamaşadır,
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar.

Şair Arif Zeynallı həmin şeir haqqında öz qənaətlərini ümumiləşdirərək yazırdı:

"1942-ci ildə ənənəvi gəraylı formasında səkkiz hecalı "Dağlar" şeiri zərif romantika ilə aşılanmışdı. Bu "Dağlar" elə bil dağlar barədə danışan bütün əvvəlki şeirlərin poetik yekunu idi. Qüdrət, dözüm və gözəllik dolu şeirdə Azərbaycan doğma el-oba kimi ümumiləşdirilirdi. Şair inamla bildirdi ki, öz sazının və sözünün gücünü ana torpaqdan, xalqdan alan nəğməkar ölməzdir".

Bir qonağam bu dünyada
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar (4, 85).

Öz qaynağını xalq yaradıcılığı çeşməsindən götürmüş Səməd Vurğun xalqın dühası kimi zəngindir və zəngin olduğu qədər də sadədir.

Ustad şairin sənətinin təkrarsız uğurları sırasında "İnsan" mənzum romantik fəlsəfi dramının ilk səhifələrindən uca sərvlər, çiçəkli və güllük içərisində gözəl bir park canlanır. Səhər yavaş-yavaş açılır. Dənizin lərzəsi eşidilir. Təbiət o qədər şairanə və müqəddəsdir ki, insan heyran qalır. Daş, torpaq, ağaclar, quşların səsi, səyyar romantika ilə qanadlanmışdır. Şair bu təbiət gözəlliyinin

fəlsəfəsini adi sözlərlə rəssam kimi elə şairanə lövhələr yaradır ki, adamı heyran etməyə bilmir. Göründüyü kimi, şair "İnsan" pyesinin I şəklində remarkada gözəl bir təbiət mənzərəsinin lövhəsini çəkir. Sonra yazır: "Mən remarkanı təsadüfi yazmıram. Səhnəmizdə təbiət səhnələri dil açıb danışmalıdır. Bu səhnələrdə təbiətin məna ahəngi, onun xeyirxah və nəcib varlığı ifadə olunmalıdır".

Qara dəniz! Qara dəniz!
Nə gümrahdır dağların!
Bizim xoşbəxt Vətənimiz
Timsalıdır ilk baharın.
Ana Vətən! Ana Vətən!
Günəş doğur gülüşündən!
Gəzin, quşlar çəmənzarı,
Salam deyin dağa-daşa,
Qoy dünyanın ilk baharı
Ağ geyinsin başdan-başa.
Ana Vətən! Ana Vətən!
Günəş doğur gülüşündən! (4, 267)

Səməd Vurğun həyata böyük hərflərlə yazılan yaranmışların əşrəfi olan insanın gözü ilə baxır, hər yerdə onun surətini, onun işini, onun səadətini görməyə can atır. Torpaq üstündə hər gözəl nemət insan zəhmətinin məhsuludur. Şairin ilk alqışı ana torpağa, onun füsunkar təbiətinə yaraşıq verən cəfakeş adamların əməyinə yüksək qiymət verməsi, hər yerdə insan arzusunun çiçəkləndiyini poetik nümunələrində işıqlandırmasıdır:

Körpə əmlik, ala çəpiş, yeminli inək
Sünbülləri dalğalanan o yaşıl zəmi,
Qabarlı əl... açıq alın, o sağlam ürək
Saymaq ilə bitən deyil ömrün aləmi! (5, 16)

Səməd Vurğun yaradıcılığında əmək mövzusu mühüm yer tutur. Onun poeziyasının əsasını yeni insan təşkil edir. İstismardan qurtarmış yaradıcı, fədakar əmək yeni-yeni xariqələr yaradır, nəinki vətəninin hər guşəsini laləzara çevirir, həm də yeni insanın formalaşmasında mühüm rol oynayır. "Ellər dünyası", "Dilican dərəsi", "Salur çayı", "Bahar və mən", "Pambıqçılar" kimi şeirlərində təbiətə sonsuz bir aludəliklə yanaşan şair çox çəkmədi ki, yaradıcı, qurucu insanın nəğməkarı oldu. Onun lirik qəhrəmanı sadə adamlardır. Bu qəhrəmanlar yenidirlər. onlar öz əlləri ilə öz səadətini qurmaq istəyən zəhmətkeş adamlardır. Şair bu qəhrəmanları təsvir edərkən çox vaxt keçmişi xatırlayır, həyatda əmələ gələn böyük dəyişiklikləri verir, yeni qəhrəmanların yaranmasındakı qanunauyğunluğu təsdiq edir. S.Vurğunun "Mingəçevir qəhrəmanı" Sarvana, onun yaradıcı əməyinə həsr edilmiş "Muğan" (1947) poeması ən yaddaqalan əsərlərdəndir. Əsər nəğmələr şəklində yaranmışdır.

...Görürəm dan yeri yenə sökülür,
Göydən yer üzünə nurlar tökülür.
Zəmilər, tarlalar üzümə gülür,

Saralır gözümdə sünbülün dəni.
Bu nemət ilhama çağırır məni (6, 272).

Əsər nəğmələr şəklində yazılmışdır. Hər bir nəğmə Muğanın əfsanəvi keçmişindən, qaynar əməklə dolu bu günündən – cadar-cadar boz torpaqlar üstə Manyaların, Sarvanların qadir əlləri ilə yaradılmış yaşıl, allı-güllü çəmənliklər, nur dolu yeni-yeni kənd və şəhərlərdən xəbər verir.

Vətənpərvərlik duyğusu Səməd Vurğun yaradıcılığının ana xəttini təşkil edir. Şairə görə, ömür yolu, bu yolun məqsəd və amalı vətəndən başlayır. Mehdi Hüseyn şairin vətənpərvərliyindən bəhs edərkən yazırdı: "Səməd Vurğunun lirik poeziyası da, dastanları da, siyasi şeirləri də onu daim həyəcanlandıran vətən və xalq mövzularına həsr olunmuşdur. Əgər biz onun əsərlərini diqqətlə tədqiq etsək, şairin hadisələrə nə qədər fəal və həssas yanaşdığını çox aydın görərik" (6, 5).

Səməd Vurğun yaradıcılığının ideya və məzmununda özünü büruzə verən vətənpərvərlik konsepti, xarakteri etibarı ilə özündə ən mükəmməl duyğu və düşüncələri birləşdirir. Məsləki və əqidəsi naminə bu ideya və prinsiplərlə təpədən dırnağa qədər köklənən, xarakteri etibarilə özündə ən mükəmməl duyğu və düşüncələri birləşdirir.

Öz ideyalarının məntiqi mənasına diqqət edən şair dövrünün ruhuna uyğun olaraq baş verən hansı bir haqsızlığa qarşı çıxaraq duyğu və düşüncəsini paylaşır. Şair vətənin yerinin, göyünün, hər bir qarış torpağının, daşının dili ilə danışıb, bilavasitə insan ruhunun nə dərəcədə məsuliyyətli olduğunu ön plana çəkir.

Səməd Vurğunun şeir və poemalarında bəhs olunan vətənpərvər duyğular buna misaldır.

Şair vaxtilə vətənpərvərlikdən bəhs edərkən üzünü bədii söz ustalarına tutub deyir: "Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan ən qadir qüvvə vətənpərvərlik hissidir, bu hiss bu gün hər birimizin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır (7).

Səməd Vurğun yaradıcılığında Azərbaycan mövzusunun özünəməxsus yeri vardır. Azərbaycan mövzusu şairin yaradıcılıq etalonu idi. Bu cəhətdən akademik Məmməd Cəfər təsadüfən yazmırdı ki, "Səməd Vurğun Azərbaycana təkcə bir şeir həsr etməmişdir. Onun bütün yaradıcılığı Azərbaycana həsr edilmişdir" (7, 101).

Şairin yaradıcılığında Azərbaycan mövzusu iki cəhətdən nəzəri cəlb edir. Azərbaycan bir Vətən, Xalq, Milli Respublika, dövlət, başı min bir bəla çəkmiş zəngin bir dövlət, qədim bir diyar – zəngin bir səltənət, ikinci tərəfdən Azərbaycanın zəngin təbiəti, dağları, dərələri, ceyranlı, turaclı çölləri, sünbüllü zəmiləri, yeraltı sərvətləri – bir sözlə, bütün varlığı ilə şairi riqqətə gətirən, bütün ömrü və yaradıcılığı boyu düşündürən mövzular mənbəyidir.

Professor C.Abdullayevin yazdığı kimi, "Səməd Vurğunun əsərlərində Azərbaycan, onun təbiəti, daşı və torpağı dil açıb danışır, əşya və predmet canlı kimi təsvir edilir, təbiət də insan kimi sevinir, kədərlənir, yaralanır və ölür. Sadə, aydın, səmimiliyi ilə hamının qəlbinə yol tapan, folklor mənşəli, ritmik, ahəngdar səciy-

yəyə malik olan bu lirika, həm də gözəl musiqidir. Səməd Vurğun qələmində təbiət insan ruhunun tərcümanı kimi verilir. O, bütöv poetik tablo yaradanda təbiətə sətirlərarası münasibətində də bu məqsədə nail olur" (8, 85).

Ümumiyyətlə, S.Vurğunun yaradıcılığında xüsusi mövqeyi ilə seçilən Azərbaycan təbiətinin gözəlliyinə həsr etdiyi əsərləri ideya-bədii xüsusiyyətlərinə görə kifayət qədər zəngindir. Şairin bu mövzuda yazdığı poetik nümunələr dilinin sadəliyi, folklor üslubuna yaxınlığı ilə səciyyələnir, özündə xalq hikmətinin və xalq şeirinin ən mükəmməl ənənələrini birləşdirməklə Vətən və Vətəndaş sevgisini optimal bədii üsullarla gerçəkləşdirən yüksək sənət nümunəsi kimi seçilir.

## ƏDƏBİYYAT


1. Vahabzadə B. Səməd Vurğun. Bakı: Azərnəşr, 1968, 346 s.
2. Mir Cəlal. Fotosənədlər, əlyazmalar, epistolyar irs. Bakı: Nurlan, 2004, 379 s.
3. Məmməd Cəfər. Estetik zövq haqqında. Bakı: Maarif, 1965, 72 s.
4. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, II cild, Bakı: Şərq-Qərb, 2005, 248 s.
5. Səməd Vurğun. Çiçək (ilk şeirlər). Bakı: Uşaqgəncnəşr, 1958, 96 s.
6. Səməd Vurğun. Seçilmiş əsərləri 5 cilddə, III cild, Bakı: Şərq-Qərb, 2005, 424 s.
7. Məmməd Cəfər. Xalq şairi Səməd Vurğun. AMEA nəşr., 1956, 201 s.
8. Abdullayev C. Səməd Vurğun poetikası. Bakı: Gənclik, 1976, 265 s.


## ЕСЛИ БЫ ВО МНЕ БЫЛА СИЛА ПРИРОДЫ


**С.Ш.ГУЛИЕВА**


## РЕЗЮМЕ


Автор настоящей статьи целиком и полностью анализирует стихи и поэмы Самеда Вургуна, посвященные природе.



**Ключевые слова:** поэт, природа, нежный, тема, родной


## IF I HAD THE NATURE'S WILL


**S.Sh.GULIYEVA**


## SUMMARY


Samad Vurgun's creative activity plays prominent roles in the poetry of 20s-30s.

In 1924 he made his first steps into the world of literature with his poems. Later in 30s-40s, the poet drew the readers' attention with his prominent works.

The author studies S.Vurgun's poems dedicated to nature.



**Key words:** poet, nature, elegant, theme, native